## Qara Dəniz Ticarət və İnkişaf Bankı haqqında məlumat

“Qara Dəniz Ticarət və İnkişaf Bankının təsis edilməsi haqqında Saziş” Azərbaycan Respublikasının 1996-cı il 8 oktyabr tarixli, 166-IQ nömrəli Qanunu ilə təsdiq edilmişdir. Qara Dəniz Ticarət və İnkişaf Bankı (QDTİB) 1997-ci ilin yanvar ayında Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının təsisçisi və üzvü olan ölkələr - Albaniya, Azərbaycan, Bolqarıstan, Ermənistan, Gürcüstan, Moldova, Rumıniya, Rusiya, Türkiyə, Ukrayna və Yunanıstan tərəfindən yaradılmış, 1999-cu ilin iyun ayından fəaliyyətə başlamışdır. Bankın qərargahı Yunanıstanın Saloniki şəhərində yerləşir.

Bankın məqsədləri bölgədə ticarət əlaqələrini inkişaf etdirmək, beynəlxalq layihələrin həyata keçirilməsini asanlaşdırmaq, xarici investisiyaları təşviq etmək və ticarət və iqtisadi əlaqələrin həm dövlət səviyyəsində, həm də özəl biznesdə inkişafına zəmanət verməkdir.

Bank İdarə Heyəti tərəfindən idarə olunur. İdarə Heyəti[1] Prezident, 3 nəfər vitse-prezident və Baş Katiblikdən ibarətdir. Prezident Bankın qanuni təmsilçisidir və Direktorlar Şurasının strateji rəhbərliyi əsasında Banka rəhbərlik edir. Vitse-prezidentlər və Baş Katiblik Direktorlar Şurası tərəfindən təyin olunur. Direktorlar Şurasının üzvləri Bankın ali qərarqəbuletmə orqanı olan Rəhbərlər Şurası tərəfindən təyin edilir. Rəhbərlər Şurası isə 11 üzv ölkə tərəfindən təyin olunan rəhbər və ehtiyat rəhbərdən ibarətdir. Bankın fəaliyyəti ilə əlaqədar qərarların qəbul edilməsi İdarəetmə Komitəsi, Kredit Komitəsi və Aktivlər və Öhdəliklər Komitəsi vasitəsilə həyata keçirilir.

QDTİB-də müşahidəçilik statusu[2] Qara Dəniz regionunda birgə maliyyələşmə layihələri də daxil olmaqla, razılaşdırılmış sahələrdə əməkdaşlıq imkanlarını genişləndirmək məqsədilə mütəmadi əlaqələrin qurulması üçün mexanizmi təmin edir. Bankın müşahidəçilik statusu Qara Dəniz regionuna güclü biznes marağı olan maliyyə institutlarına və ya müstəqil dövlətlərə verilə bilər. Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyası, Almaniyanın KFW Bankı, Avstriya İnkişaf Bankı, Fransa İnkişaf Agentliyi (PROPARCO), Avropa İnkişaf Maliyyə İnstitutları Assosiasiyası, Nordik İnvestisiya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası QDTİB-də müşahidəçidirlər.

Bankın nizamnamə kapitalının (authorized capital) dəyəri 3,45 mlrd. avro və ya 3,0 mlrd. SDR təşkil edir ki (və ya 3000000 ədəd səhm), bunun da 2,3 mlrd. avro və ya 2,0 mlrd. SDR məbləğində olan hissəsinə (və ya 2000000 ədəd səhmə) üzv ölkələr tərəfindən abunə yazılışı (subscribed capital) aparılmışdır. Nizamnamə kapitalının 1,15 mlrd. avro məbləğində olan hissəsinə abunə yazılışı aparılmamışdır (bölüşdürülməmişdir). Səhm kapitalında Rusiya, Türkiyə və Yunanıstan hər biri 16,58%, Rumıniya 14,07%, Bolqarıstan və Ukrayna hər biri 13,57%, Azərbaycan 5,03%, Albaniya 2,01%, Ermənistan 1,01%, Gürcüstan və Moldova hər biri 0,5% paya malikdir. 0,5% səhm kapitalı isə bölüşdürülməmiş qalmışdır.

QDTİB-nin Rəhbərlər Şurasının 2021-ci il 01 oktyabr tarixli 204 nömrəli Qərarına əsasən Bankın 2007-ci ildə artırılmış nizamnamə kapitalının bölüşdürülməmiş hissəsinin (1,15 milyard avro) 70%-nə (805,0 milyon avro dəyərində), həmçinin vaxtilə Moldovanın abunəlikdən imtina etdiyi 11,5 milyon avro dəyərində səhmlərə abunəlik prosesi başlamışdır.

QDTİB institusional olaraq öz fəaliyyətində ən yaxşı beynəlxalq təcrübəyə əsaslanan Korporativ İdarəetmə prinsiplərini rəhbər tutur. Bununla yanaşı, o iqtisadiyyat və bazarda baş verən dəyişikliklərə tez və çevik cavab verə biləcək strategiya əsasında əməliyyatlarını həyata keçirir. Bankın biznes fəaliyyəti sağlam bank təcrübəsi, biznes təkliflərin ədalətli və operativ qiymətləndirilməsi, səmərəlilik və çeviklik, müştərinin ehtiyaclarına fokuslanma prinsiplərinə əsaslanır. Bankın fəaliyyətinin əsas istiqamətlərinə üzv ölkələrdə investor və şirkətlərə dəstək, uzun müddətli kreditlər və zəmanətlərin verilməsi, kiçik və orta sahibkarlığın inkişafına yardım, ticarətin maliyyələşdirilməsi və s. aiddir.

Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 20 fevral tarixli 856 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının maliyyə naziri və Azərbaycan Respublikasının iqtisadiyyat naziri

[1] https://www.bstdb.org/who-we-are/how-we-are-structured/organizational-structure
[2] https://www.bstdb.org/who-we-are/observers

QDTİB-nin Rəhbərlər Şurasında Azərbaycan Respublikası üzrə müvafiq olaraq rəhbər və ehtiyat rəhbər təyin edilmişlər və onlara sözügedən maliyyə-kredit institutlarında ölkəmizi təmsil etmək səlahiyyətləri verilmişdir.

Bank fəaliyyətə başlayandan bugünədək üzv ölkələrdə infrastruktur, enerji, nəqliyyat, istehsal, telekommunikasiya, maliyyə sahələri üzrə 489-a qədər müxtəlif layihələrə[3] təqribən 8,23 mlrd. avro, o cümlədən Azərbaycanda özəl sektora[4] təqribən 422,0 mln. avro məbləğində kreditlərin ayrılması təsdiqlənmişdir ki, bu da Bankın əməliyyatlar portfelində 5,13% təşkil edir. QDTİB Azərbaycanda əsasən qeyri-neft sektoru üzrə kiçik və orta ölçülü layihələrin maliyyələşdirilməsində iştirak edir.

2019-cu ilin 1 avqust tarixində Bakı Fond Birjasında QDTİB-nin korporativ istiqrazları üzrə hərrac keçirilmiş və cəlb edilmiş vəsaitin özəl sektorun maliyyələşdirilməsi üçün istifadəsi nəzərdə tutulmuşdur. Bununla da QDTİB Azərbaycanda milli valyuta ilə istiqraz yerləşdirən ilk beynəlxalq maliyyə qurumu olmuşdur.

2012-2013 və 2021-2022-ci illərdə Bankın Rəhbərlər Şurasına sədrliyi ölkəmiz etmiş və 2013-cü ilin 21-23 iyun tarixlərində Bakı şəhərində Bankın Rəhbərlər Şurasının 15-ci İllik Toplantısı və 2022-ci ilin 21-24 iyun tarixlərində 24-cü İllik Toplantısı[5] və bu toplantılar çərçivəsində Azərbaycan Biznes Forumu yüksək səviyyədə təşkil olunmuşdur. 2025-2026-cı illərdə Bankın Rəhbərlər Şurasına sədrliyi növbəti dəfə ölkəmiz icra edəcək və 2026-cı ildə İllik Toplantı Azərbaycanda keçiriləcək.

2022-2028-cı illərdə Bankın Prezidenti vəzifəsini Türkiyədən olan cənab Serhat Köksal icra edəcək.

---

[3] https://www.bstdb.org/our-projects

[4] https://www.bstdb.org/our-projects/project-search?Countries=Azerbaijan

[5] http://www.maliyye.gov.az/news/5703/bakida-qdtib-in-rehberler-surasinin-24-cu-illik-toplantisi-kecirilib